Respublika.- 2020.- 30 oktyabr.- S.10.



# Xalq-ordu birliyi sayəsində şanlı qələbəyə nail olacağıq!



**Azərbaycan xalqı öz tarixinin ən şanlı səhifələrini yazır. Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında tarix yazır - 28 ilə yaxın müddət ərzində Ermənistan işğalında qalmış, mənfur erməni tapdağı altında inildəyən Azərbaycan torpaqları yenidən öz Vətəninə qovuşur. Əldə edilmiş uğurlara ruhlanan Azərbaycan xalqı cənab Prezidentin ətrafında sıx birləşmişdir. Ölkəmizin bütün vətəndaşları hər gün Twitter vasitəsilə Prezident, Ali Baş Komandan cənab İlham Əliyevdən yeni qələbələr haqqında sevindirici xəbər gözləyir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz işğal olunmuş ərazilərimizin azad edilməsi uğrunda müzəffər yürüşünü inamla davam etdirir, müasir hərb tarixində yeni qələbələrlə dolu səhifələr açır.**

Bu gün müstəqil Azərbaycan dövlətinin əldə etdiyi tarixi uğurların təməlində ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin uğurla həyata keçirdiyi daxili və xarici siyasət dayanır. Cənubi Qafqazın suverenlik və tərəqqi yolunda sürətlə inkişaf edən Azərbaycan sözün həqiqi mənasında nəhəng irəliləyişlər əldə edir. Azərbaycanın əldə etdiyi uğurlar bir ilin, iki ilin məhsulu deyil. Dövlətinin milli maraqlarından irəli gələn müstəqil siyasətin müəllifi olan dövlət başçımızın rəhbərlik etdiyi 17 ildə müstəqil dövlət quruculuğunun bütün istiqamətləri üzrə ciddi nailiyyətlər əldə edilib, böyük uğurlara imza atılıb. Biz bunun müsbət nəticələrini görürük, şahidi oluruq. Azərbaycan Ordusunun zəfər yürüşü davam edir və şübhə yoxdur ki, ölkəmizin ərazi bütövlüyü tezliklə təmin olunacaq.

Oktyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində demişdir: **"Beləliklə, dünən azad edilmiş yaşayış məntəqələrinin siyahısını doğma xalqıma çatdırıram. Zəngilan rayonunda azad edilmiş kəndlər: Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd. Cəbrayıl rayonunun azad edilmiş kəndləri: Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər. Qubadlı rayonunun dünən azad edilmiş yaşayış məntəqələri: Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan və Qubadlı şəhəri!**

**Dünən mən artıq bu barədə Azərbaycan xalqına bu sevincli xəbəri verdim. Bir daha bu şad xəbəri bütün Azərbaycan xalqına çatdırmaq istəyirəm. Zəngilan, Cəbrayıl, Qubadlı rayonunun sakinlərinə, bu kəndlərdə yaşamış sakinlərə xoş xəbər çatdırmaq mənim üçün böyük şərəfdir. Düzdür, o kəndlərdən bir şey qalmayıb. Eybi yoxdur, bərpa edəcəyik. Azərbaycan xalqının da, dövlətinin də buna gücü çatacaq. Təki torpağımız azad olsun. Təki bayrağımız işğaldan azad edilmiş bütün torpaqlarda qaldırılsın. Biz əsgərlərimizin, zabitlərimizin canı-qanı bahasına bu torpaqları azad edirik. Həm döyüş meydanında, həm siyasi müstəvidə özümüzü təsdiqləmişik, dünyaya təsdiqləmişik. Azərbaycan xalqını qürurlu xalq kimi, cəsarətli xalq kimi, yenilməz xalq kimi təsdiqləmişik. Heç bir təzyiq bizə təsir edə bilməz. Heç bir hədə-qorxu bizi yolumuzdan döndərə bilməz. Çünki haqq yolundayıq, yumruq kimi birik. Bu birlik əbədidir və əbədi olacaq!**

**Əziz həmvətənlər, mən hələ müharibənin ilk günlərində sizə söz vermişdim ki, biz düşməni torpaqlarımızdan qovacağıq, sona qədər qovacağıq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".**

Prezident İlham Əliyev xalqa müraciətində bir daha qeyd etdi ki, Azərbaycan Ordusunun zəfər yürüşü davam edir və ölkəmizin ərazi bütövlüyü tezliklə təmin olunacaq.

Mən özüm də Qubadlının Xocik kəndində anadan olmuşam. Qubadlılılar yurdsevər insanlardır. Hər şey nə qədər yaxşı olsa da, 30 ilə yaxın idi ki, onlar öz doğma ocaqlarının həsrəti ilə yaşayırdılar. Amma bilir və inanırdılar ki, cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin uzaqgörən, müdrik siyasəti tezliklə torpaqlarımızın azad olunmasını təmin edəcək. Biz qubadlılılar Prezidentimizin bütün çıxışlarını diqqətlə izləyirik. Ali Baş Komandan hər çıxışında yeni bir qələbə xəbəri verir və bu çıxışlardan məmnunluq duyuruq. Mən həmin çıxışlardan bir məqamı diqqətə çatdırmaq istəyirəm: "Müzəffər Azərbaycan Ordusu gedən döyüşlərdə düşmənləri bizim torpağımızdan qovur və qovacaqdır. Mən demişəm ki, öz xoşları ilə bizim torpaqlarımızdan çıxmasalar, biz onları iti qovan kimi qovacağıq və qovuruq. Müzəffər Azərbaycan Ordusu hər gün yeni strateji məntəqələri, yeni yüksəklikləri, yeni yaşayış məntəqələrini işğalçılardan azad edir. Bizim qisasımız döyüş meydanında olacaq".

Bəli, Füzulidən, Cəbrayıldan, Zəngilandan düşmən qüvvələri qovuldu. Bu gün isə bayrağımız Qubadlıda dalğalanır.

Bütün qubadlılılar doğma yurdumuzun işğaldan azad olunmasını səbirsizliklə gözləyirdilər. Nəhayət, cənab Prezidentin bu şad xəbəri paylaşması qubadlılıları Ali Baş Komandanın ətrafında daha sıx birləşməyə sövq edib. Bu gün Azərbaycan Ordusu sıralarında döyüşən qubadlılılar böyük qəhrəmanlıq göstərirlər. Milli Qəhrəmanımız Şükür Həmidovun Qubadlının azad olunması uğrundakı döyüşlərdə qəhrəmancasına həlak olması təkcə qubadlılılar üçün deyil, bütün Azərbaycan xalqı üçün böyük itki oldu. Allah rəhmət eləsin, qəbri nurla dolsun,Vətən sağ olsun!

Bu gün xilaskar Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızı işğalçı Ermənistan silahlı qüvvələrindən azad etmək kimi müqəddəs vəzifəni şərəflə yerinə yetirir. Artıq Cəbrayıl, Füzuli və Zəngilan rayon mərkəzləri də daxil olmaqla, yaşayış məskənlərinin mütləq əksəriyyəti, o cümlədən Hadrut qəsəbəsi və Xocavənd rayonunun bir sıra kəndləri düşmən tapdağından azad olundu. Ordumuzun əldə etdiyi tarixi zəfər heç bir halda təsadüfi olmayıb. Bütün cəbhələrin qalibi Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən inkişaf doktrinasının, o cümlədən hərbi quruculuq siyasətinin məntiqi nəticəsi kimi qiymətləndirilməlidir. Torpaqlarımızın işğaldan azad olunması Prezident, Ali Baş Komandan İlham Əliyevin siyasi - diplomatik sahədə qazandığı uğurların bəhrəsidir. Cəbhənin bütün istiqamətlərində rəşadətli Ordumuzun düşməni darmadağın edərək irəliləməsi isə regionda sülh və sabitliyə ciddi təhlükə yaradan işğalçı erməni hakimiyyətinin təxribatçı əməllərinin birdəfəlik sonu olacaq.

Müstəqil Azərbaycanın bütün sahələrdə qazandığı uğurlar təsdiq edir ki, ölkə Prezidentinin, Ali Baş Komandan cənab İlham Əliyevin uzaqgörən və məğrur siyasəti, atdığı hər bir addım, verdiyi hər bir qərar yalnız bu gün üçün yox, gələcək üçün də qarantdır. Artıq Silahlı Qüvvələrimiz yeni inkişaf mərhələsinə qədəm qoyub. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin daha da yaxşılaşdırılması, ordumuzun ən müasir silahlarla təminatı istiqamətində görülən mühüm işlər sayəsində Azərbaycan Silahlı Qüvvələri dünyanın 50 ən güclü ordusu ilə bir cərgədə öz layiqli yerini tutub. 2016-cı ilin Aprel döyüşləri, 2018- ci ilin Günnüt və 2020-ci ilin Tovuz əməliyyatları Azərbaycan Ordusunun gücünü və işğal altındakı torpaqlarımızı qısa müddətdə azad etməyə qadir olduğunu təsdiqlədi.

2020- ci il sentyabrın 27- dən bu günə qədər isə Azərbaycan Ordusu müstəqillik tariximizə şanlı səhifələr yazır. Bütün bunlar — döyüş meydanında qələbələr qazanmağımız və bu günlər ərzində bütün ölkələrlə siyasi danışıqlarda haqlı mövqeyimizi çatdıra bilməyimiz Prezident İlham Əliyevin siyasi xadim kimi müdrik fəaliyyətinin, siyasi uzaqgörənliyinin və praqmatik düşüncəsinin nəticəsidir. Dövlətimizin başçısının ötən dövr ərzində Azərbaycanı dünya miqyasında layiqincə təmsil etməsi, xalqın ona inamının, etimadının nəticəsidir.

Həmişə olduğu kimi, sentyabrın 27-dən işğalçı Ermənistanın başladığı genişmiqyaslı təxribatlarına qarşı Silahlı Qüvvələrimizin əks-hücum əməliyyatları dövründə də xalq Prezidentlə birlik, həmrəylik nümayiş etdirdi, dövlət başçısının hər sözünün arxasında oldu, həm də ona inamını nümayiş etdirdi. Bir daha bəlli oldu ki, Azərbaycanda iqtidar- xalq həmrəyliyi sarsılmazdır.

İşğalçı Ermənistanın dövlət siyasətinin əsasında faşist ideologiyası dayanır. Məhz bu ölkədə vaxtilə nasistlərlə işbirliyində olan, onlara donoslar çatdıran şəxslər qəhrəmanlaşdırılır, onların xatirəsinə abidələr ucaldılır. Ermənistanda böyüməkdə olan nəslə azərbaycanlılara və türklərə beşikdən başlayaraq nifrət aşılanması dövlət tərəfindən güclü şəkildə təşviq olunur. İşğalçı dövlət öz xislətinə, həmişə son hadisələr zamanı da sadiq qalır. Məlumdur ki, forpost dövlətin ordusu heç vaxt açıq, üzbəüz döyüşlərdə qalib gəlməyib. Dağlıq Qarabağ münaqişəsinin xronologiyasına nəzər salsaq, görərik ki, düşmən qüvvələri hərb meydanındakı məğlubiyyətlərinin əvəzini həmişə mülki əhalini hədəfə almaqla çıxmaq istəyib. Humanitar atəşkəslə bağlı əldə olunan razılaşmalardan sonra erməni hərbi birləşmələrinin Azərbaycanın şəhər və kəndlərini artilleriya atəşinə tutması erməni faşizminin eybəcər sifətinin növbəti təzahürüdür.

Azərbaycanın hər dəfə humanitar atəşkəsə əməl etməsinə baxmayaraq, Ermənistan silahlı qüvvələrinin bu razılaşmaları kobud şəkildə pozmaqda davam etdiyinin şahidiyik.

Xəbər verildiyi kimi, Suqovuşan ərazisində sanitar maşınının atəşkəsin müəyyən olunduğu vaxtdan bir neçə saat sonra Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulması nəticəsində bir nəfər tibb xidməti qulluqçusu ağır yaralanıb. Həmçinin, cəbhə bölgəsindən xeyli kənarda yerləşən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşlərinə məruz qalıb. Nəticədə aralarında uşaq və qadınlar da olmaqla onlarca mülki şəxs həyatını itirib, çoxlu sayda yaralananlar var. Dinc əhalinin, mülki infrastrukturun düşmən qüvvələri tərəfindən atəşə tutulmasını qətiyyətlə pisləyən dövlətimizin başçısı **"Bu, bir daha Ermənistan rəhbərliyinin faşist mahiyyətini göstərir. Birinci dəfə deyil ki, bizim şəhərlərimiz atəşə məruz qalır və demək olar ki, hər gün Tərtər, Ağdam, Goranboy, Ağcabədi və digər şəhərlərə Ermənistan atəş açır. Bu atəş nəticəsində vətəndaşlarımız həlak olur, yaralanır, 2 mindən çox ev dağıdılıb, ya da ki, bu evlərə çox böyük ziyan vurulubdur. Ancaq bu namərd hərəkətlər Azərbaycan xalqının iradəsini qıra bilməz",** - deyə xalqa 26 oktyabr tarixli son müraciətində bildirib.

Ümumiyyətlə, işğalçı Ermənistanın törətdiyi müharibə cinayətlərinin əhatə dairəsi kifayət qədər böyükdür. Türkiyənin "Haber Global" televiziya kanalına müsahibəsində Ermənistan hərbi birləşmələrinin mülki əhalini hədəf almasına toxunan Prezident İlham Əliyev vurğulayıb: "Bütün cəbhəboyu istiqamətlərdə Ermənistan məğlubiyyətə uğrayır və belə olan halda öz heyfini, öz acısını, öz məğlubiyyətini mülki şəxslərdən çıxmaq istəyir. Bu, onların xislətidir. Çünki Xocalı soyqırımını törədənlər məhz Gəncəyə o hücumu da törətmişlər".

Düşmən tərəf humanitar atəşkəs rejimini pozduğunu, mülki əhalini, o cümlədən də Gəncəni atəşə tutduğunu hər vəchlə gizlətməyə, hətta danmağa çalışır. Ancaq dövlətimizin başçısının da bildirdiyi kimi, artıq dünya erməniliyi, Ermənistanın havadarları, onların hamiləri və islamofob dairələr bu cinayəti gizlədə bilməyəcəklər. Çünki artıq hər şey göz qabağındadır.

Oktyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində Müdafiə Nazirliyinin rəhbər heyəti və cəbhə bölgəsində yerləşən birlik komandirlərinin iştirakı ilə operativ müşavirədə demişdir: "Bu döyüşlər bizim üçün böyük təcrübədir. Biz gördük ki, hərbi arsenalımızda olan bəzi silahlar bəzi hallarda müasir döyüşlərdə o qədər də lazım olmur. Əksinə, biz bu gün yüksək texnoloji mərhələyə qədəm qoymuşuq və əlbəttə ki, texnologiyalar, peşəkarlıq böyük dərəcədə hər bir ordunun uğurunu təmin edir. Ancaq mən bunu demişəm və bir daha demək istəyirəm ki, torpaqları işğalçılardan azad edən əsgərlər və zabitlərdir. Bayrağı da onlar qaldırırlar, torpağı da onlar işğalçılardan təmizləyirlər. Ona görə növbəti günlərdə, - bu gün biz bu barədə danışacağıq, - bizim hərbi əməliyyatlarımız elə aparılmalıdır ki, onların səmərəsi daha da təsirli olsun, vaxt itirməyək. Yenə də deyirəm, Azərbaycan Ordusu böyük rəşadət göstərir, peşəkarlıq göstərir. Biz 1990-cı illərin əvvəllərində bir neçə il ərzində torpaqlarımızı itirmişik. Bu gün hələ bir ay keçməyib artıq Füzuli, Hadrut, Cəbrayıl, Zəngilan, Kəlbəcər, Qubadlı rayonlarının bir hissəsi işğalçılardan azad edilib. Yenə də deyirəm, hər gün cəbhədən yaxşı xəbərlər gəlir. Düzdür, bəzi istiqamətlərdə ciddi düzəlişlərə ehtiyac var, amma biz bütövlükdə qarşımızda duran hədəfə çatırıq. Hər gün növbəti gün üçün döyüş tapşırığı verilir. Mən bu döyüş tapşırığını təsdiqləyirəm və demək olar ki, bu tapşırığın böyük hissəsi icra edilir.

Mən əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Biz öz torpağımızda vuruşuruq. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, tarixi ədalət bizim tərəfimizdədir. Biz ərazi bütövlüyümüzü bərpa etməliyik, işğalçıları öz torpaqlarımızdan qovmalıyıq, ölkəmizin suverenliyini təmin etməliyik. Əminəm ki, biz buna nail olacağıq. Amma buna nail olmaq üçün əlbəttə ki, hər bir vəzifəli şəxsdən böyük məsuliyyət tələb olunur, cəsarət tələb olunur və nizam-intizam tələb olunur."

Yeri gəlmişkən, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva "İnstagram" səhifəsində Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir sıra kəndləri və Qubadlı şəhəri işğaldan azad edilməsi münasibətilə xalqımızı təbrik edib. Qeyd etmək lazımdır ki, cənab Prezidentin xalqa müraciəti, eləcə də Mehriban xanımın təbriki ölkə ictimaiyyəti arasında böyük ruh yüksəkliyi yaradıb.

Azərbaycanın mərd, igid oğulları düşməni torpaqlarımızdan tamamilə mütləq qovub çıxaracaqlar. Bəli, Dağlıq Qarabağda bizim Böyük Qələbəmiz lap yaxındadır. Haqq-ədalət bizim tərəfimizdədir. Biz əzəli və tarixi torpaqlarımızı mütləq azad edəcəyik.

Azərbaycan xalqı Prezidentinə, Dövlətinə, Ordusuna güvənir. Hər bir Azərbaycan vətəndaşı silaha sarılıb işğal altında olan torpaqlarımızı azad etmək üçün səfərbər olmağa hazırdır. Torpaqlarımızın işğaldan azad olacağı, üçrəngli bayrağımızın Şuşada, Xankəndidə dalğalanacağı gün uzaqda deyil. Hər gün, hər an bizi qələbəyə yaxınlaşdırır! Uzun illər bu qələbənin intizarı, həsrəti ilə yaşayan və öz ülvi arzusuna çatmaq ərəfəsində olan xalqımız xoşbəxtdir!

Bir məqamı da xüsusilə vurğulamaq istərdim ki, xalqımız, yenilməz və rəşadətli ordumuzun respublikamızın ərazi bütövlüyünün təmin olunması məqsədilə atılan addımlarda Prezident, Ali Baş Komandan cənab İlham Əliyevə və Silahlı Qüvvələrimizə böyük dəstək nümayiş etdirir. Müstəqil Azərbaycan heç vaxt ərazi bütövlüyünü bərpa etmək, əzəli torpaqlarına sahib çıxmaq fikrindən dönməyəcək. Xalqımıza, mədəniyyətimizə qarşı soyqırımı törədən, məscidlərimizi, məzarlarımızı dağıdan, mədəni irsimizi öz adlarına çıxarmağa çalışan işğalçı Ermənistan hakimiyyətinin avantürist, məkrli planı baş tutmayacaq, ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu işğal altındakı bütün kənd və qəsəbələrimizi, şəhərlərimizi düşmən tapdağından tezliklə azad edəcək. Dövlət-xalq-ordu birliyi sayəsində Azərbaycan bayrağı Şuşada dalğalanacaq!

**Ağamir HƏŞİMOV,**
**Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin Azərbaycan Hidrotexnika və Meliorasiya Elm-İstehsalat Birliyinin baş direktoru, aqrar elmləri doktoru, professor.**